Azərbaycan.-2024.- 30 dekabr (№ 290).- S.4.

# Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 15-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7, № 4, maddə 365, № 5 (I kitab), maddələr 488, 489, 503, № 11, maddə 1187) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 3.0.10-1-ci maddə əlavə edilsin:

"3.0.10-1. yüksəkixtisaslı miqrant yüksəkixtisaslı mütəxəssislərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;";

1.2. 20.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xarici ölkələrin müvafiq orqanları tərəfindən Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə bu Məcəllədə Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün müəyyən edilmiş müvəqqəti olma müddətləri ilə bağlı fərqli qaydalar tətbiq edildikdə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qarşılıqlı olaraq fərqli qaydalar müəyyən edilə bilər.";

1.3. 26.1-ci maddəyə "şəxslərə" sözündən sonra ", habelə yüksəkixtisaslı miqrantlara" sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 40.0.6-cı maddə əlavə edilsin:

"40.0.6. yüksəkixtisaslı miqrantın mütəxəssis hesab olunduğu sahə üzrə fəaliyyətə başlaması öz iradəsindən asılı olmayan səbəblərdən mümkün olmadıqda.";

1.5. 45.1.4-1-ci maddəyə "mütəxəssis" sözündən sonra "və ya yüksəkixtisaslı miqrant" sözləri əlavə edilsin;

1.6. 47.6-cı və 47.7-ci maddələrə "10 iş günü" sözlərindən sonra "(yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə münasibətdə 5 iş günü)" sözləri əlavə edilsin;

1.7. 49-cu maddə üzrə:

1.7.1. 49.1-ci maddədə "maddəsində" sözü "və 45.1.4-1-ci (yüksəkixtisaslı miqrantlara münasibətdə) maddələrində" sözləri ilə və "hal" sözü "hallar" sözü ilə əvəz edilsin;

1.7.2. 49.2-ci maddədə "maddəsində" sözü "və 45.1.4-1-ci (yüksəkixtisaslı miqrantlara münasibətdə) maddələrində" sözləri ilə əvəz edilsin;

1.8. aşağıdakı məzmunda 50.3-cü maddə əlavə edilsin:

"50.3. Bu Məcəllənin 50.1.8-ci maddəsi ilə müəyyən edilmiş müvəqqəti yaşamaq üçün icazə verilməsindən imtina halı yüksəkixtisaslı miqrantlara şamil edilmir.";

1.9. 51.5-ci maddəyə "cəlb edilənlər" sözlərindən sonra ", habelə yüksəkixtisaslı miqrantın əri (arvadı) və 23 yaşına çatmamış övladları" sözləri əlavə edilsin;

1.10. 52-ci maddə üzrə:

1.10.1. 52.1.7-ci maddəyə "mütəxəssis" sözündən sonra "və ya yüksəkixtisaslı miqrant" sözləri əlavə edilsin;

1.10.2. "Qeyd" hissəsinin 4-cü bəndinə birinci halda "Məcəllənin" sözündən sonra "52.1.7-ci və" sözləri və "müvafiq olaraq" sözlərindən sonra "45.1.4-1-ci və" sözləri əlavə edilsin;

1.11. 53.1.7-ci və 55.0.6-cı maddələrə "götürdüyü" sözündən sonra ", habelə yüksəkixtisaslı miqrantın icazə üçün müraciət etdiyi" sözləri əlavə edilsin;

1.12. 54-cü maddə üzrə:

1.12.1. 54.5-ci maddənin ikinci cümləsinə "hal" sözündən sonra "yüksəkixtisaslı miqrantlara," sözləri əlavə edilsin;

1.12.2. 54.7-ci maddənin birinci və ikinci cümlələrinə "1 ay" sözlərindən sonra "(yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə münasibətdə 20 gün)" sözləri əlavə edilsin;

1.13. 64.0.19-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 64.0.20-ci maddə əlavə edilsin:

"64.0.20. yüksəkixtisaslı miqrantlara (mütəxəssis olduğu sahə üzrə fəaliyyət göstərdikdə).";

1.14. 66-cı maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 66.0.3-cü və 66.0.5-ci maddələri ilə müəyyən edilmiş iş icazəsinin verilməsindən imtina halları yüksəkixtisaslı miqrantın ərinə (arvadına) və 23 yaşına çatmamış övladlarına şamil edilmir.";

1.15. 71-ci maddə üzrə:

1.15.1. adında "Əmək müqaviləsi pozulduqda iş" sözləri "İş" sözü ilə əvəz edilsin;

1.15.2. 71.1-ci maddənin ikinci cümləsinə "pozulduqda" sözündən sonra "və ya iş icazəsinin bu Məcəllənin 66.0.3-cü maddəsi tətbiq edilmədən rəsmiləşdirilməsinə əsas olan hal aradan qalxdıqda" sözləri əlavə edilsin;

1.15.3. 71.2-ci maddədə "Əmək müqaviləsi vaxtından əvvəl pozulduqda" sözləri "İş icazəsi qüvvəsini itirdikdə" sözləri ilə əvəz edilsin;

1.16. 73-cü maddə üzrə:

1.16.1. 73.0.2-ci maddə ləğv edilsin;

1.16.2. 73.0.4-cü maddədə "və 69.6-cı" sözləri ", 69.6-cı və 71.1-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 14.8.2-1-ci və 14.8.5-1-ci maddələr əlavə edilsin:

"14.8.2-1. Bu Qanunun 14.8.1-ci və 14.8.2-ci maddələrində müəyyən edilmiş müddətlər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə beş iş günü azaldılmaqla tətbiq edilir.";

"14.8.5-1. Bu Qanunun 14.8.4-cü və 14.8.5-ci maddələrində müəyyən edilmiş müddətlər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə on gün azaldılmaqla tətbiq edilir.";

2.2. 18.58-1-ci maddəyə "müddətlər" sözündən sonra "Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın ərinə (arvadına) və 23 yaşına çatmamış övladlarına, habelə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2024-cü il*